# Görkəmli ədiblərimiz yad edilib





**Azərbaycanın ilk Xalq şairi, görkəmli dramaturq, alim, ictimai xadim Səməd Vurğunun 116, Xalq yazıçısı Mehdi Hüseynin 113 illiyi Fəxri Xiyabanda qeyd olunmuşdur. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri, Əməkdar müəllim, professor İlham Pirməmmədov, Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov, Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna", "Zerkalo" qəzetlərinin, ayna.az saytı və Ayna TV-nin təsisçisi və baş redaktoru Elçin Şıxlı, cəmiyyətin üzvləri, görkəmli ədiblərimizin daimi oxucuları onların məzarlarını ziyarət ediblər.**

Dahi Səməd Vurğunu Azərbaycan xalqına sevdirən şeirlərindəki sadəlik, səmimilik, xalq dilinə yaxınlıq, lakin bütün bunlarla yanaşı, dərin mənalılıqdır. Şairin ədəbiyyatımızın qızıl fondunda yer almış əsərləri bu gün də poeziyamızın qiymətli inciləri sırasındadır. Səməd Vurğun cəmi 50 il yaşamasına baxmayaraq, onun ədəbi irsi özündən sonrakı Azərbaycan poeziyasına böyük təsir göstərib. XX əsr Azərbaycan poeziyasının bayraqdarı Səməd Vurğunu zaman bizdən uzaqlaşdırdıqca şairin poeziyasına olan ümumxalq məhəbbəti daha da artır. Yurdumuzun elə bir guşəsi yoxdur ki, XX əsr Azərbaycan poeziyasının bayraqdarı Səməd Vurğunun orada ayaq izləri olmasın.

Çıxış edənlər dahi şairin həyat və yaradıcılığından danışıb, onun Azərbaycan ədəbiyyatındakı xidmətləri barədə söz açıblar. Qeyd ediblər ki, o, baharda dünyaya göz açmışdı, özü də poeziyamızın baharı oldu. Aylar, illər, əsrlər ötəcək Səməd Vurğun yenə də indiki kimi seviləcək.

Müasir Azərbaycan ədəbiyyatının formalaşmasında, ideya saflığı və bədii kamillik uğrunda mübarizələrində, bugünkü yüksək zirvələrə çatmasında görkəmli Xalq yazıçısı, nəzəriyyəçi və tənqidçi Mehdi Hüseynin böyük rolu olmuşdur. Çıxış edənlər Mehdi Hüseynin həyat və fəaliyyətindən söz açıblar. Qeyd olunub ki, qüdrətli söz ustası Mehdi Hüseyn sözün əsl mənasında ədəbiyyat fədaisi idi. Bu, şöhrətli sənətkarın, alovlu publisistin, görkəmli dövlət xadiminin keçdiyi şərəfli həyat yolu, yaradıcılığı ictimai varlığın bədii ifadəsi olan ədəbiyyatımızın böyük bir qolu və ayrılmaz hissəsidir. Azərbaycan ədəbiyyatının inkişafında, yeni mövzularla zənginləşməsində, ədəbiyyatşünaslığın araşdırılmasında, ədəbi tənqidin yeni zirvələr fəth etməsində xüsusi yeri olan Mehdi Hüseyn illər ötsə belə heç zaman unudulmayacaq.

**Vəli VƏLİYEV,**
**"Respublika".**